# İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARDA QUŞÇULUĞUN İNTENSİV İNKİŞAF ETDİRİLMƏSİ

**Şairə Quliyeva, Yasin Aslanov, Kənan Məmmədov**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi Tədqiqat İnstitutu, sairequliyeva001@gmail.com*

İşağaldan azad olunmuş ərazilərin heyvandarlıq potensialı çox yüksəkdir. Ölkə əhalisinin quş əti və quş yumurtasına daim artan tələbatını quşçuluğun inkişaf etdirilməsi, həmçini onların cins tərkibinin yaxşılaşdırılması və təkmilləşdirilməsi hesabına ödəmək mümkündür.

Yumurta və quş əti istehsalı əsasən ixtisaslaşdırılmış iri təsərrüfatlarda və quşçuluq fabriklərində mərkəzləşdirilir. Bu isə elmin nailiyyətlərindən və qabaqcıl təcrübədən istifadə etmək üçün yaxşı imkan yaradır. İri quşçuluq təsərrüfatlarında ağır zəhmət tələb edən işlərin mexanikləşdirilməsi quşçuluq məhsullarının maya dəyərinin aşağı düşməsinə səbəb olmuşdur. Azərbaycanda yumurta və quş əti istehsal etmək üçün 55-dən yuxarı iri quşçuluq fabriki fəaliyyət göstərir. Lakin enerji daşıyıcılarının bahalaşması nəticəsində iri quşçuluq fabrikləri tam rentabellik səviyyəsində işləyə bilmirlər.

Son illər müəyyən qədər istehsal göstəricilərinə görə və bir neçə səciyyəvi xüsusiyyətlərinə əsasən, Azərbaycan quşçuluğunun inkişaf templəri dünya səviyyəsinə çatdırılmışdır.

Quşçuluğun sənaye əsasında inkişaf etdirilməsi üçün təsərrüfatlarda baytar-sanitar qaydalarına düzgün riayət olunması və yemləmənin düzgün təşkili ən vacib amillərdəndir. Quşçuluq təsərrüfatlarının əsas işi sağlam cavan quşlar bəsləməkdir.

İşğaldan azad edilmiş rayonlarda sənaye quşçuluğunun inkişaf etdirilməsi, əhalinin quş əti və əmtəəlik yumurtaya olan tələbatının ödənilməsində boyük rol oynayacaqdır.